*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

**Heydər Əliyev.**



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 8-9 (9192-9193) | 13 may 2015-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiymәti 40 qәpik

***Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov fəaliyyətə başladığı ilk gündən şəhər və kəndlərdə əhali ilə səyyar qəbul-görüşlər keçirir. Keçirilən qəbul-görüşlərdə əhalini narahat edən problem və qayğılar dərindən öyrənilir, onların həlli istiqamətində elə yerindəcə aidiyyəti qurumların rəhbərlərinə konkret tapşırıqlar verilir.***

***Belə görüşlərdən biri də rayonun Aşağı Salahlı kəndində keçirilmişdir. Qəbulda Prezident Administrasiyasının məsul işçisi Əlibaba Əliyev, İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov, İcra Aparatının şöbə müdirləri, rayonun hüquq-mühafizə, idarə, müəssisə, təşkilat və xidmət sahələrinin rəhbərləri iştirak etmişdir.***



## GÖRÜŞ KEÇİRİLMİŞDİR

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov çıxış edərək rayonumuzda, eləcə də Aşağı Salahlı kəndində son illərdə görülmüş işlər və həyata keçirilən tədbirlər barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, son illər rayonun bütün yaşayış məntəqələri qazlaşdırılmış, fasiləsiz olaraq elektrik enerjisi ilə təmin edilmiş, əhalinin suvarma və içməli su ilə təminatı yaxşılaşdırılmış, rayonun 47 ümumtəhsil məktəbindən 28-i üçün yeni bina tikilmiş, 6 məktəb binası əsaslı təmir edilmiş, 5 həkim məntəqəsi və 2 yeni uşaq bağçası tikilib istifadəyə verilmişdir. Rayon Mərkəzi Xəstəxanasının, Kənd Təsərrüfatı Nazirliyinin rayon şöbəsinin inzibati binasının, Şəhid ailələri və Qarabağ Müharibəsi Əlilləri üçün 12 fərdi evin tikintisinə, məcburi köçkün ailələri üçün 304 mənzillik yeni yaşayış binasının tikintisinə başlanılmışdır. Erməni silahlı birləşmələri tərəfindən yandırılmış 80 evlik Qızıl Hacılı kəndinin bərpası üçün torpaq sahəsi ayrılmış, yeni Şahmat Məktəbi, Gənclər Mərkəzi, Ədəbiyyat Muzeyi, YAP rayon təşkilatının yeni inzibati binası tikilmiş, Heydər Əliyev Mərkəzində, Heydər Əliyev parkında, Fəxri Qazaxlılar parkında, Dəmir Yolu Stansiyasının inzibati binasında əsaslı təmir işləri aparılmışdır. Yeni Yuxarı Salahlı-Kəmərli (23 km), Qazaxbəyli-Aşağı Salahlı (7 km) və Qazax-Quşçu Ayrım (27 km) avtomobil yolları çəkilmişdir. Rayonun müxtəlif yaşayış məntəqələrində 25 ədəd yeni subartezian quyuları qazılmış, 61 km məsafədə su arxları beton üzlüyə alınmışdır. O cümlədən Aşağı Salahlı kəndində Heydər Əliyev Fondunun hesabına 400 şagird yerlik tam orta məktəb binası tikilmiş, 7 km uzunluğunda Qazaxbəyli-Aşağı Salahlı avtomobil yolu asfaltlaşdırılmış, 5 ədəd subartezian quyusu qazılmış, uşaq bağçası əsaslı təmir edilmiş, 10 km uzunluğunda suvarma arxı beton üzlüyə alınmış, hidroqurğular yenisi ilə əvəz olunmuş, 3 km uzunluğunda içməli su xətti, 4,1 km uzunluğunda kənddaxili məhəllələrə su xətti, kənd qəbirstanlığının ətrafına metal tor çəkilmiş, 3 km uzunluğunda kənddaxili yolara qum-çınqıl döşənmişdir. Kür çayının sağ sahilində drenaj xətlərinin təmizlənməsi işlərinə başlanılmışdır. Kənd 100 faiz təbii qazla və fasiləsiz elektrik enerjisi ilə təmin edilmişdir.

Sonra kənd sakinləri çıxış etmiş və təkliflər səsləndirilmişdir.

- Kənd ağsaqqalı Mirzə Nuriyev kənddə görülmüş işlər barədə danışaraq bildirmişdir ki, Aşağı Salahlı kəndi Bakıdan ən uzaqda yerləşən kənd olmasına baxmayaraq respublikanın ən abad və inkişaf etmiş kəndlərindən biridir. M.Nuriyev Qazax şəhərinin yeni su-kanalizasiya xəttinin çəkilməsi işlərinin tezliklə başlanılmasına köməklik göstərilməsini xahiş etdi.

- Kənd sakini Ramiz Poliyev kənddə 3 ədəd yeni subartezian quyusunun qazılmasına ehtiyac olduğunu bildirmişdir.

- Kənd sakini, Aşağı Salahlı kənd tam orta məktəbin direktoru Cahangir Alnaqov yeni tikilmiş məktəb binasının qazla isidilməsi üçün yeni istilik sisteminin quraşdırılmasına və qazanxananın tikintisinə ehtiyac olduğunu söyləmişdir.

- Kənd sakini Nüsrət Aşırov kənddə yeni həkim məntəqəsinin tikintisinə köməklik göstərilməsini xahiş etmişdir.

- Kənd sakini Afət Küləşova kənddə 100 yerlik yeni uşaq bağçasının tikintisinə ehtiyac olduğunu bildirmişdir.

- Kənd sakini Əli Süleymanov bildirmişdir ki, kənd daxilindəki elektrik dirəklərinin dəyişdirilməsinə ehtiyac vardır.

- Kənd sakini Taleh Həsənov Kür çayının sağ sahilində sahilbərkitmə işləri aparılmasına köməklik göstərilməsini xahiş etmişdir.

- Kənd sakini Yaşar Əfəndiyev bildirmişdir ki, taxıl biçininin qısa müəddətdə və itkisiz aparılması üçün yeni kombaynların alınmasına ehtiyac vardır.

- Kənd sakini Billurə Aşurova uşaq bağçasının həyətində uşaqların əylənməsi üçün qurğuların quraşdırılmasını xahiş etmişdir.

Ayaz Əsgərov sonda sakinlər tərəfindən irəli sürülmüş təkliflərə münasibət bildirmiş və onların icrası üçün aidiyyəti struktur və xidmət sahələrinin rəhbərlərinə konkret tapşırıqlar vermişdir.

Səyyar qəbul-görüşdən sonra Prezident Administrasiyasının məsul işçisi Əlibaba Əliyev kənddəki uşaq bağçasının fəaliyyəti ilə maraqlanmış və oraya baxış keçirmişdir. Qonaqlar bağçanın fəaliyyətindən razı qaldıqlarını bildirmişlər.

**Elçin İSMAYIL**

## “Bakı-2015” I Avropa Oyunlarına hazırlıqla əlaqədar rayonumuzda məşəldarların yığıncağı keçirilmişdir

**Rayonumuzda “Bakı-2015” I Avropa Oyunlarına hazırlıqla əlaqədar Məşəldarların ilk yığıncağı keçirilmişdir. Rayon İcra Hakimiyyətində keçirilən yığıncağın əsas məqsədi məşəldarların maarifləndirilməsi, təlimatlandırılması və məşəl yürüşü haqqında məlumatlandırılmasından ibarət olmuşdur.**

Rayon İcra Hakimiyyəti Başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gulaya Həsənova yığıncağı giriş sözü ilə açaraq ölkəmizin tarixində və xalqımızın həyatında çox əlamətdar və tarixi hadisə münasibətilə, “Bakı-2015” I Avropa Oyunlarının rəmzi olan Məşəlin daşıyıcısı seçildiklərinə görə Məşəldarları təbrik etmiş, üzərlərinə düşən şərəfli missiyanı yüksək səviyyədə həyata keçirmələri üçün onlara uğurlar arzulamışdır.

Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Gündüz Abışov çıxış edərək Məşəldarlara bildirmişdir ki, siz artıq “Bakı-2015” I Avropa Oyunlarının rəmzi olan və açılış mərasiminin təməli hesab olunan məşəlin daşıyıcısınız. Bu şərəf sizə dünya miqyasında öz rayonunuzu və Azərbaycanı təmsil etmək imkanı verir. Bütün dünya Məşəl Yürüşünün başlanılmasını və Azərbaycanın, onun xalqının nə təklif edəcəyini gözləyir.

Sonra Məşəldarlar “Bakı-2015” I Avropa Oyunları Məşəldarlar üçün Bələdçi məqaləsi ilə tanış olmuşlar. Onlarla bələdçi məqaləsində əksini tapan “Məşəldar kimdir, tədbirdən öncə nəyi bilmək lazımdır, tədbir günü nəyi gözləmək lazımdır, Avropa Oyunları Məşəldarından nə gözləyirik, yürüşün marşrut qaydaları hansılardır?” və digər məsələlərlə bağlı təlimatlar, maarifləndirici söhbətlər aparılmış, onları maraqlandıran suallara cavablar verilmişdir.

Sonda Məşəldarlar öz fikir və ürək sözlərini söyləmiş, ilk “Bakı-2015” I Avropa Oyunlarının Bakıda keçirilməsindən, belə bir şərəfli missiyanın daşıyıcıları olmaqlarından qürur hissi duyduqlarını bildirmişlər.

Məşəldarlara məlumat kitabçaları paylanılmışdır.

# GÜL-GÜLÜ ÇAĞIRIR...

### ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 92-Cİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ RAYONUMUZDA GÜL BAYRAMI KEÇİRİLMİŞDİR




***Artıq neçə ildir ki, 10 mayı bayram günü kimi qeyd edirik. Günəşli bir may səhərində dünyaya gəlmiş ulu öndərin doğum günü hər bir azərbaycanlı üçün bayram, sevinc, fərəh günüdür. Həmin gün rayonumuzda ulu öndərin anadan olmasının ildönümü münasibətilə Gül bayramı keçirilir. Bütün çiçəklərin, güllərin açıldığı vaxt məhz ulu öndərin doğum gününə təsadüf edir və gül-gülə, çiçək-çiçəyə, sevinc-sevincə qarışır həmin gün. Artıq neçə illərdir ki, Gül bayramı ümumrespublika bayramına çevirilmiş, ən yaddaqalan günlərdən biri olmuşdur. İnsanlar hamılıqla bu bayramda fəal iştirak edərək ulu öndərə olan öz sevgi və ehtiramlarını bildirirlər.***

Rayonumuzda da Gül bayramının keçirilməsi artıq ənənə şəklini almışdır. Ümummilli lider, müasir Azərbaycan dövlətinin qurucusu və yaradıcısı olan Heydər Əliyevin anadan olduğu günü Gül bayramı ilə böyük təntənəli şəkildə qeyd edirik. Hər bir azərbaycanlının yaddaşına əbədi həkk olunmuş həmin gün insanlar ulu öndərə olan öz tükənməz sevgi və ehtiramlarını min bir rəngə çalan güllərlə, ürəkləri oxşayan çiçəklərlə bildirirlər. Şəhər başdan-başa tər çiçəklərə qərq olmuşdu. Yol boyunca səkilərin kənarlarında olan ağacların arasına əkilmiş gül-çiçəklər şəhərə xüsusi bir gözəllik qatmışdı. Şəhərdə əsl bayram əhval-ruhiyyəsi hiss olunurdu.



Hər il olduğu kimi bu il də rayon sakinləri səhər tezdən ulu öndərin adını daşıyan parka tələsirdilər. Parka gələn hər bir rayon sakini özü ilə birlikdə bəslədiyi çiçəkləri də gətirmişdi bu müqəddəs məkana. Vaxt keçdikcə parkda çiçəklərin sayı çoxalır, ətraf sanki al-əlvan rəngə boyanırdı. Bayrama bir-birindən gözəl və yaraşıqlı çiçəklər, güllər, dibçəklər çıxarılmışdı. Məktəblilərin, gənclərin, ictimaiyyətin digər təbəqələri nümayəndələrinin ulu öndərin adını daşıyan parka gətirdikləri güllər, çiçəklər bahar günəşinin şəfəqlərinə boyanaraq daha gözəl, daha qəşəng görünürdü.

Ulu öndərin adını daşıyan parkın gözəl mənzərəsi Gül bayramına daha bir gözəllik qatırdı. Əsaslı şəkildə yenidən qurulmuş və bu səbəbdən də müasir və yeni görkəm almış Heydər Əliyev adına park rayon sakinlərinin ürəyində bir minnətdarlıq hisləri oyatmışdı. Parkın döşəməsi, yaşıllıq örtüyü, sağ və sol tərəfdə çağlayan fəvvarələr, müasir və diqqəti cəlb edən oturacaqlar buraya başqa bir gözəllik verir. Yeni işıq dirəkləri, müasir işıqlandırma sistemi parkın cəlbediciliyini daha da artırır, ona daha gözəl bir rəng qatır. Bu istirahət məkanını daha da baxımlı edən cəhətlərdən biri də süni göllə parkı birləşdirən sahənin yeni bir görkəmə salınmasıdır. Bir tərəfdən Ağstafa çayının sərin mehi, bir-birindən gözəl çiçəklər, digər tərəfdən Heydər Əliyev Mərkəzi və parkın gözəl görkəmi burada keçirilən bayramı fərqləndirməklə yanaşı onu daha da gözəl, daha yaddaqalan edir. Odur ki, burada keçirilən tədbirlərin təəssuratları uzun müddət yaddaşlardan silinmir.

Rayon rəhbərliyi ulu öndər Heydər Əliyevin doğum gününün yüksək səviyyədə qeyd edilməsi üçün sərəncam imzalamışdır. Ümummilli liderin anadan olmasının 92-ci ildönümü ilə bağlı Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərovun 23 aprel 2015-ci il tarixli 20/42 saylı sərəncamına əsasən tədbirlər planı hazırlanmışdır. Tədbirlər planına uyğun olaraq bütün sahələr üzrə idarə və müəssisələrdə tədbirlər keçirilmiş, məktəblilər arasında müsabiqə və yarışlar təşkil edilmişdir. Gül bayramının keçirilməsi də tədbirlər planında qeyd olunmuşdur.





Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov bayramda iştirak etmək üçün Heydər Əliyev adına parka gəldi.

Çiçək bayramında tədbir iştirakçıları gülləri nümayiş etdirməklə yanaşı mahnı oxuyur, saz çalır, şeir deyir, rəqs edirdilər. Bu da gül bayramının əsl el bayramı olduğunu bir daha göstərirdi. Həmin gün Qazax Dövlət Dram Teatrı aktyorlarının ifasında səslənən ulu öndərə həsr olunmuş ədəbi-bədii kompozisiya böyük alqışlarla qarşılandı.

Sonra Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov münsiflər heyəti ilə birlikdə güllərə baxmağa başladı. Hamı həyəcan içində idi. Hər kəs gülünün birinci olacağına ümid edirdi. Güllər də bir-birindən gözəl, yaraşıqlı olduğu üçün onların hansının ən gözəl olduğunu seçmək, hansının birinci olduğunu müəyyənləşdirmək olduqca çətin və məsuliyyətli idi.

Ümummiyyətlə gül bayramında 500-dən çox gül nümayiş olunurdu. Güllərə baxış başa çatdıqdan sonra onların seçilməsinə başlanıldı. Nə qədər çətin olsa da nəhayət ki, Gül bayramının ən gözəl gülləri seçildi. “Avey” Dövlət Tarix-Mədəniyyət Qoruğunun kollektivi tərəfindən təqdim olunan gül kompozisiyası I yerə layiq görüldü. Bu zaman kollektivin sevincinin həddi-hüdudu yox idi. Azərbaycan Müəllimlər İnstitutu Qazax filialı kollektivinin təqdim etdiyi gül kompozisiyası isə II yerə layiq görüldü.

Gül bayramında iştirak edənlər tədbirdən əliboş qayıtmadılar. Fərqlənən güllərin demək olar ki, hamısına rayon İcra Hakimiyyəti Aparatı tərəfindən qiymətli hədiyyələr verildi.

Həmin gün bütün rayon sakinləri gözəl, yaddaqalan bir gün yaşadılar. Çiçəklərlə yaddaşlara həkk olundu həmin gün. Ulu öndər, ümummilli lider Heydər Əliyevin doğum günü xoş bir xatirəyə döndü.

**Elçin İSMAYIL**





**Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərovun 23 aprel 2015-ci il tarixli 20/42 nömrəli sərəncamı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar olaraq tədbirlər planı hazırlanmışdır.**

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 92-Cİ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR PLANI HAZIRLANMIŞDIR

Tədbirlər planına əsasən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş elmi konfrans, müsabiqə, sərgi və idman yarışlarının keçirilməsi nəzərdə tutulmuşdur.

Heydər Əliyev Mərkəzində, Mərkəzi Kitabxanada Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş sərginin təşkil edilməsi tədbirlər planına daxil edilmişdir.

Rayonun bütün tədris müəssisələrində Heydər Əliyev dərslərinin keçirilməsi, Heydər Əliyev irsinə həsr olunmuş konfrans və dəyirmi masaların təşkili də tədbirlər planında öz əksini tapmışdır.

Yaradıcı ziyalıların iştirakı ilə rayonda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar olaraq tədbirlərin keçirilməsi də tədbirlər planında əks olunmuşdur.

O cümlədən rayonun bütün inzibati ərazi dairələri üzrə Azərbaycan xalqının ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş tədbirlərin keçirilməsi də tədbirlər planına daxil edilmişdir.

Həmçinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə ulu öndərin adını daşıyan parkda “Gül bayramı”nın keçirilməsi də qeyd edilmişdir.

Eyni zamanda “Göyəzən” rayon qəzetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş tədbirlərin geniş işıqlandırılması da tədbirlər planında göstərilmişdir.

Tədbirlər planında qeyd olunan bütün məsələlərlə bağlı aidiyyatı idarə və müəssisələrin rəhbərlərinə tapşırıqlar verilmişdir.

**“GÖYƏZƏN”**

# 9 may Qələbə günü münasibətilə bayram tədbiri keçirilmişdir



adını daşıyan parkın yaxınlığında, 1941-1945 -ci illərdə həlak olanların xatirəsinə ucaldılmış "Xatirə Kompleksi"nin qarşısında davam etdirilmişdir. Xatirə Kompleksinin önünə gül-çiçək dəstələri qoyulmuşdur.

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov bayram tədbirini giriş sözü ilə açmış, Qələbə günü münasibətilə müharibə veteranlarını təbrik etmiş, onlara uzun ömür və möhkəm cansağlığı arzulamışdır. Bildirmişdir ki, 1990-cı ilin əvvəllərində ölkəmizdə yaranan özbaşınalıq, hərc-mərclik nəticəsində Böyük Vətən Müharibəsi iştirakçılarına vətən xaini damğası vurmağa, onları xalqın gözündən salmağa çalışanlar var idi. Lakin ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra veteranların haqqı özlərinə qaytarıldı və pozulmuş hüquqları bərpa olundu. İndi siz veteranlara dövlətinmiz tərəfindən hər cür qayğı

**Faşizm üzərində tarixi qələbənin əldə olunmasında ölkəmizin və eləcə də qazaxlıların öz payı var. Bu müharibədə Azərbaycandan 700 minə yaxın insan iştirak etmiş və onlardan 300 mini həlak olmuşdur. Azərbaycanlılardan 123 nəfəri ən yüksək ada-Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Otuz nəfər "Şöhrət" Ordeninin hər 3 dərəcəsi ilə, 170 min nəfər isə müxtəlif orden və medallarla təltif olunmuşdur. Bu, xalqımızın qəhrəmanlığını təsdiq edən mühüm göstəricilərdir.**



Qazax rayonundan isə Böyük Vətən




Müharibəsində cəbhəyə 12 min 250 nəfər səfərbər olunmuş, onlardan 5232 nəfəri döyüşlərdə həlak olmuş və itkin düşmüşdür. Sovet İttifaqı Qəhrəmanı Müseyib Allahverdiyev də bu torpağın yetirməsidir. Onun möhtəşəm abidəsi Qazax şəhərinin mərkəzində, adamların ən çox olduğu avtovağzal binası qarşısında və "Rus artileriyasının Allahı" adlandırılan Əlağa Şıxliniskinin adını daşıyan küçənin başlanığıcında ucaldılmışdır. Bu abidə həmişə gənclər, orta məktəb şagirdləri tərəfindən ziyarət olunur.

Qazaxda Qələbə günü ilə əlaqədar keçirilən bayram tədbiri də qəhrəmanın abidəsi önünə tər qərənfil dəstələrinin qoyulması və xatirəsinin ehtiramla yad edilməsi ilə başlamışdır.

Sonra tədbir ulu öndər Heydər Əliyevin

göstərilir. Möhtərəm Prezidentimiz İlham Əliyev hər il Qələbə günü ərəfəsində siz veteranları, müharibədən qayıtmayanların dul arvadlarını, müharibə illərində arxa cəbhədə çalışan insanları mükafatlandırır, onların yaşayış şəraiti və sağlamlığı ilə maraqlanır.

A.Əsgərov qeyd etmişdir ki, faşizm üzərində Qələbənin 70 illiyini qeyd etdiyimiz bu bayram günlərində hər bir azərbaycanlını bir arzu, bir istək daha çox düşündürür. Gün o gün olsun ki, Qarabağ torpaqlarımızı düşmən tapdağından azad edək və həmin Qələbə üçün də belə bir bayram keçirək. Həmin gün uzaqda deyil.

Sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin rəisi, mayor Vüqar Mirzəyev, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı rayon şöbəsinin sədri Xanqulu Süleymanov və başqaları bayram tədbirində çıxış edərək veteranlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına dərin minnətdarlıqlarını bildirmişlər.

Bayram tədbirinin sonunda Böyük Vətən Müharibəsi iştirakçılarına Qələbənin 70 illik yubiley medalları və rayon İcra Hakimiyyətinin Fəxri Fərmanları təqdim olunmuşdur.

**Elçin İSMAYIL**



# AZƏRBAYCANIN ÖZÜ QƏDƏR ƏBƏDİ

**Qazax rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası rayon Təşkilatının birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə "Azərbaycanın özü qədər əbədi olan şəxsiyyət" adlı elmi-praktik konfrans keçirilmişdir.**



Konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoymuş, əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

YAP rayon Təşkilatının sədri Həmid Pənahov tədbiri giriş sözü ilə açmış və məruzə ilə çıxış etmişdir. Qeyd etmişdir ki, Azərbaycanın dövlətçilik tarixində ölçüyəgəlməz xidmətləri olmuş Heydər Əliyevin əziz xatirəsi bu gün də xalqın qəlbində yaşayır. Onun uzaqgörən siyasəti sayəsində Azərbaycanın adı bu gün dünya müstəvisində öndə gedən dövlətlər sırasında məğrur dayanır. Onun Azərbaycana 30 ildən çox rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr etmişdir. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır.

Sonra YAP Qazax rayon Təşkilatı Qadınlar Şurasının sədri Asya Alhüseynova "Heydər Əliyevin Azərbaycan qadınlarına qayğısı", YAP Gənclər Birliyi Qazax rayon Təşkilatının sədri Vüsal İsmayılov "Heydər Əliyev gənclərimizin himayəçisi olmuşdur", YAP Qazax rayon Təşkilatı İdarə Heyətinin üzvü Arzu Novruzov "Heydər Əliyev və Azərbaycan səhiyyəsi", Şura üzvü Tərlan Bədəlova "Heydər Əliyev və Azərbaycan təhsili" mövzusunda çıxış etmişlər.

Qazax rayon İcra Hakimiyyəti başçısının birinci müavini Fərman Nağdalıyev çıxış edərək ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətinin qurucusu və onun gördüyü işlərin misilsiz olduğunu qeyd etmişdir. Natiq öz çıxışında bildirmişdir ki, Azərbaycanlı olması ilə həmişə fəxr edən Heydər Əliyev öz dühası ilə millətimiz üçün yeni bir inkişaf yolunun təməlini qoymuşdur. Dahi öndərin Azərbaycançılıq məfkurəsi bu gün də xalqın xoşbəxtliyinə, müstəqilliyimizin möhkəmləndirilməsinə, ölkəmizin iqtisadi və mədəni inkişafına, ordu quruculuğuna, bir sözlə dövlətin hərtərəfli qüdrətlənməsinə xidmət edir.

# Azərbaycan idealını həqiqətə çevirən dahi şəxsiyyət



**Qazax Sement zavodunda ulu öndər Heydər Əliyevin anadan olmasının 92 illiyi ümumxalq sevgisi və böyük təntənə ilə qeyd olundu. Bildirildi ki, millət atasının canından artıq sevdiyi Vətəni qarşısında misilsiz xidmətləri, xeyirxah əməlləri onun hər bir azərbaycanlının qəlbində möhtəşəm abidəsini ucaltmışdır.**

Tədbir ulu öndərin zavodun həyətində ucaldılmış büstü önünə tər gül-çiçək dəstələrinin qoyulması ilə başladı. Tədbir iştirakçıları ümummilli liderə olan ehtiramlarını bildirərək onun xatirəsini dərin hörmətlə yad etdilər.

Qazax Sement zavod MMC-nin direktoru Hikmət Qəribov giriş sözü ilə çıxış edərək bildirdi ki, ölkəmizin hər yerində keçirilən anım mərasimlərində və el şənliklərində bu nadir tarixi simanın şüurlu ömrünü doğma xalqının yüksəlişinə və tərəqqisinə həsr etməsi qədirbilənliklə vurğulanır, dahi rəhbərin ölməz və nurlu xatirəsi ehtiramla yad olunur.

Zavodun direktoru Yusif Ziya Bəkiroğlu, "Göyəzən" qəzetinin redaktoru Elçin İsmayıl və digər çıxış edənlər ulu öndər Heydər Əliyevin titanik həyat və fəaliyyətindən danışaraq bu, fenomenal şəxsiyyət olan, bəşəri keyfiyyətləri ilə beynəlxalq arenada zirvələşən ulu öndərimizin bütün insanlığa rəğbət və xidmətlərindən, planetar düşüncə sahibi kimi tanınmasından söz açmışlar.

Tədbirin sonunda ümummilli liderin 92-ci ildönümü münasibətilə ağacəkmə kampaniyası keçirilmiş, zavodun ərazisinə yeni tinglər basdırılmışdır.

**Xuraman ƏZİMOVA**

# HAZIRLIQ İŞLƏRİ APARILMIŞDIR

***Ümumilli lider, ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar Gül bayramına hazırlıq işləri aparılmışdır. Belə ki, şəhərdəki Heydər Əliyev adına parkda, Heydər Əliyev adına prospektdə, həmçinin digər küçə və meydanlarda yeni gül kollarının əkilməsi, al-əlvan güllərdən ibarət milli bəzək nümunlərinin yaradılması işləri həyata keçirilmişdir.***



Bir neçə gün ərzində 30 minə yaxın yeni çiçək və gül kolları əkilmiş, buta, romb formalarında və müxtəlif rəngli güllərdən gül-mozaikalar hazırlanmışdır. Əvvəlki illərdə olduğu kimi bu il də gül bayramının daha yaddaqalan və xoş əhval-ruhiyyədə keçməsi üçün xüsusi bayram proqramı hazırlanmış və bütün işlər yüksək səviyyədə yerinə yetirilmişdir.

Qazax şəhəri yaxın günlərdə Avropa Oyunları məşəlinin marşurut istiqaməti üzrə daha bir beynəlxalq tədbir iştirakçılarını qəbul etməyə hazırlaşır. Samux şəhərindən sonra may ayının 18-də Qazaxda "Bakı-2015" I Avropa Oyunları məşəlinin qarşılanma mərasimi olacaqdır.

Məşəlin qarşılanma mərasiminə hazırlıq işləri çərçivəsində məşəldarların yığıncağı keçirilmişdir. Burada onlar məşəl yürüşü haqqında məlumatlandırılmış və təlimatlandırılmışdır. Onlar bu şərəfli missiyanı yüksək səviyyədə həyata keçirəcəklərini söyləmişlər.

Bundan başqa rayon mərkəzində məşəlin keçəcəyi küçələrdə yenidənqurma, təmir və abadlıq işlərinə başlanılmışdır. Şəhərin Heydər Əliyev prospektində, Azadlıq, Vaqif, Bakı, N.Nərimanov, Ə.Şıxliniski və başqa küçələrində yeni asfalt qoyulması, kommunal evlərin dam örtüklərinin təzələnməsi, hasar və divarların rənglənməsi, küçələrdəki yaşıllıq zolaqlarına yeni bəzək və gül kollarının əkilməsi işləri sürətlə aparılır.

Hal-hazırda "Bakı-2015" I Avropa Oyunları məşəlinin qarşılama mərasimi ilə əlaqədar olaraq hazırlıq işləri davam etdirilir. Aparılan işlərin sürətli və keyfiyyətlə həyata keçirilməsinə aidiyyatı qurumlar tərəfindən nəzarət edilir.

# Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi anılmışdır

**Rayon İcra Hakimiyyətinin və YAP Qazax rayon təşkilatının birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümü ilə bağlı anım tədbiri keçirilmişdir. Tədbirdə rayonun ictimai-siyasi həyatında fəal iştirak edən qadınlar, səhiyyə işçiləri, müəllimlər və ictimaiyyət nümayəndələri iştirak etmişdir.**

YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov tədbiri giriş sözü ilə açmış və Zərifə xanım Əliyevanın keçdiyi şərəfli, mənalı, keşməkeşli ömür yolu haqqında tədbir iştirakçılarına məlumat verilmişdir. Sonra Zərifə xanım Əliyevanın xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

YAP Qazax rayon təşkilatı Qadınlar Şurasının sədri Asya Alhüseynova geniş məruzə ilə çıxış edərək gözəl ana, vəfalı ömürgün yoldaşı, intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq alim Zərifə xanım Əliyevanın həyatı, elmi və yaradıcılıq fəaliyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

Qazax rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova çıxış edərək bildirmişdir ki, Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban ana, uşaqlarını, nəvələrini yaşadan, böyüdən bir fədakar insan kimi qəlblərdə yaşayır. Heydər Əliyev- Zərifə xanım bir-birini üzvi surətdə tamamlayan bu iki parlaq şəxsiyyətin ailə həyatı bütün cəmiyyət üçün milli dəyərlərimizi əks etdirən nümunədir. Zərifə xanım Azərbaycana İlham Əliyev kimi Prezident bəxş edən bir ana olaraq hər zaman tarixdə qalacaqdır. Ölkəmizin sürətli inkişafı, dünyadakı nüfuzu, möhtəşəm uğurları ilə fəxr edərkən, Azərbaycan Prezidentinin bilik və bacarığının, qətiyyət və müdrikliyinin təməlində ulu öndər Heydər Əliyev ilə yanaşı, sözsüz ki, Zərifə xanımın da təsirini görürük.

Şəhər Poliklinikasının göz həkimi Rəqiyyə İsmayılova, Qazax Dövlət Sosial-İqtisad Kollecinin müəllimi Tərlan Bədəlova, şəhər 3 saylı uşaq bağçasının müdiri Nəzakət İsgəndərova və başqaları çıxış edərək Zərifə xanım Əliyevanın görkəmli alim, nəcib insan, mehriban ana, sədaqətli ömürgün yoldaşı kimi həyat və fəaliyyəti barədə danışmışlar.

# DƏYİRMİ MASA KEÇİRİLMİŞDİR

**Rayon Məşğulluq Mərkəzi tərəfindən "Məşğulluq sahəsində dövlət siyasətinin həyata keçirilməsində sosial tərəfdaşların rolu" mövzusunda dəyirmi masa keçirilmişdir. Ədəbiyyat Muzeyində keçirilən tədbirdə idarə, müəssisə və təşkilat nümayəndələri, İcra Aparatının məsul işçiləri, KİV nümayəndələri iştirak etmişdir.**



Qazax rayon Məşğulluq Mərkəzinin direktoru Elçin Nəsibov tədbiri giriş sözü ilə açaraq hər bir işəgötürənin məşğulluq sahəsində vətəndaşların hüquqlarının həyata keçirilməsinin təminatçısı, iqtisadi fəal əhali və məşğul əhalinin ölkənin gücü və qüdrəti olmasını bildirmişdir. Qeyd etmişdir ki, rayon Məşğulluq Mərkəzi olaraq bu cür tədbirlərin keçirilməsinin əsas məqsədi də vətəndaşların məşğulluğunu və əmək hüquqlarının həyata keçirilməsini təmin etməkdir. Belə tədbirlərin sayının artması ölkənin inkişafı deməkdir.

Məşğulluq Mərkəzinin baş məsləhətçisi Xalidə Hacıyeva geniş məruzə ilə çıxış edərək Azərbaycan Respublikasının Məşğulluq haqqında Qanununa əsaslanan məşğulluğun təmin edilməsində işəgötürənlərin iştirakı barədə qanunun tələblərini tədbir iştirakçılarının nəzərinə çatdırmışdır.

Mərkəzin baş məsləhətçimühasibi Aqil Əmrahov çıxış edərək Məşğulluq Mərkəzinə təqdim olunan formalar haqqında ətraflı danışmış, hər bir idarə, müəssisə və təşkilat tərəfindən boş iş yeri yarandığı halda mərkəzə məlumat verilməsinin vacibliyini, əks halda məlumat verilmədiyi təqdirdə isə həmin təşkilatlara qarşı müvafiq cərimələrin tətbiq ediləcəyini bildirmişdir.

Sonra rayon İcra Hakimiyyəti Aparatının məsul işçisi Fariz Vəliyev çıxış edərək rayonda aparılan tikinti-quruculuq və abadılıq işlərindən danışmış, Məşğulluq Mərkəzi tərəfindən keçirilən bu cür tədbirlərin təqdirəlayiq olduğunu qeyd etmişdir.

Məşğulluq Mərkəzinin direktoru Elçin Nəsibov tədbirə yekun vuraraq qarşılıqlı hörmət və anlaşma şəraitində keçən belə görüşlərin mütəmadi olaraq təşkil ediləcəyini bildirmişdir.

**Nüşabə HÜSEYNOVA**

# "Şahin" hərbi idman oyunlarının zona birinciliyi keçirilmişdir



***Qazax rayonunda "Şahin" hərbi idman oyunlarının zona birinciliyi yarışları keçirilmişdir. Yarışda 11 rayonun komandası iştirak etmişdir.***

Zona birinciliyi uğrunda Gəncə və Mingəçevir şəhərlərinin, Ağstafa, Tovuz, Şəmkir, Göygöl, Samux, Kəlbəcər, Zaqatala, Gədəbəy və Daşkəsən rayonlarının komandaları mübarizə aparmışdır. Hər bir komandada VII-X sinif şagirdlərindən ibarət 14 nəfər şagird iştirak etmişdir.

Açılış mərasimində Gənclər və İdman Nazirliyinin məsul işçisi Altay Musayev, rayon İcra Hakimiyyətinin məsul işçisi Sərdar Orucov, Gənclər və İdman İdarəsinin rəisi Vüqar Nəbiyev və başqaları çıxış edərək "Şahin" hərbi idman oyunlarının əhəmiyyətindən danışmış və yarış iştirakçılarına uğurlar arzulamışlar.

Sonra birinciliyə start verilmişdir. Turnirin iştirakçıları olan komandalar hərbi paraddan keçmişlər. Sonra gənc Şahinçilər idmanın müxtəlif növlərində öz qüvvə və bacarıqlarını sınamışlar. Gərgin keçən idman mübarizəsi şəraitində Mingəçevir şəhərinin komandası yarışın qalibi olmuşdur. Ağstafa rayonu II, Şəmkir rayonu isə III yeri qazanmışdır. Qeyd edək ki, Mingəçevir şəhər və Ağstafa rayon komandaları Respublika birinciliyində iştirak etmək üçün vəsiqə qazanmışdır.

Qalib komandalara Gənclər və İdman Nazirliyinin Diplomları, rayon Gənclər və İdman İdarəsinin kubokları verilmişdir.

# HEYDƏR ƏLİYEV müstəqil Azərbaycanda hüquqi-demokratik dövlətin yaradıcısıdır

**Müasir Azərbaycan tarixi dedikdə gözlərimiz önündə ulu öndər, bütün varlığı ilə xalqına bağlanmış Heydər Əliyevin siması canlanır. 40 ildən artıq olan bir dövrdə xalqımızın taleyi Heydər Əliyev şəxsiyyəti ilə, onun quruculuq fəaliyyəti və ölkənin tərəqqisi naminə mübarizəsi ilə bağlıdır. Heydər Əliyev Azərbaycan torpağının xalqımıza bəxş etdiyi ən böyük tarixi şəxsiyyətdir. O, sovet dövründə Azərbaycanın tarixi inkişaf prosesinə təkan vermiş, müstəqil Azərbaycan dövlətinin memarı kimi dövlətçiliyimizin əsaslarını yaratmışdır.**

Ulu öndər Heydər Əliyev təkrarolunmaz, özünəməxsus keyfiyyətlərə malik müstəsna bir dahidir. Azərbaycan tarixinin önəmli bir dövrü - XX əsrin ikinci yarısı - XXI əsrin başlanğıcı onun adı ilə bağlıdır. Xalqın bütün maddi və mənəvi həyat sferasına onun gətirdiyi zənginliklər ölçüyə gəlməzdir. Bu dahi insanın taleyi xalqın taleyi, Azərbaycanın taleyi Heydər Əliyevin taleyi idi. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən az sonra siyasi böhran yarananda xalqın tələbi ilə xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi, dəmir iradəsi sayəsində ölkəmiz bir çox bəlalardan xilas oldu. Vətəndaş müharibəsinin qarşısı alındı, ayrı-ayrı siyasi qüvvələrə və şəxslərə tabe olan silahlı birləşmələr ləğv edildi, vahid komandanlığa tabe olan ordu yaradıldı.

Ümummilli lider Heydər Əliyevin müstəqil dövlət quruculuğu işində ilk ciddi addımlarından biri "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında" 9 avqust 1994-cü il tarixli fərmanı idi. Həmin fərman müstəqil dövlət quruluşunun mühafizəsində, insan hüquq və azadlıqlarının qəsdlərdən qorunmasında, cinayətkarlığa qarşı mübarizədə və qanunçuluğun möhkəmləndirilməsində əsaslı dönüş yaratdı.

Azərbaycan Respublikasının 1969-cu ildən başlayan yeni tarixi, müstəqil dövlət kimi ölkəmizin və xalqımızın taleyi, ölkə həyatında əldə edilmiş nailiyyətlər yalnız və yalnız dahi şəxsiyyət Heydər Əliyevin adı və müdrik dövlətçilik siyasəti ilə bağlı olmuşdur. "Azərbaycan tarixinin Heydər Əliyev dövrü" kimi qiymətləndirilən bu zaman kəsiyində ulu öndər tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyasının məntiqi nəticəsidir ki, bu gün xalqımız müstəqil, demokratik və hüquqi dövlətdə yaşamaq imkanı əldə etmişdir. Ölkə öz xoşbəxt gələcəyini təmin etmək üçün bütün təminatlara, ən başlıcası siyasi və iqtisadi müstəqilliyə nail olmuşdur.

Prezident Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən müdrik dövlətçilik siyasəti nəticəsində Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda böyük işlər görülmüşdür. Ötən illərdə milli dövlətçilik ənənələrinə və beynəlxalq standartlara uyğun köklü hüquq islahatları aparılmışdır. Memarı Heydər Əliyev olan müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi, çoxpartiyalılıq prinsipi əsasında demokratik prezident, parlament və bələdiyyə seçkiləri təcrübəsinin formalaşması tarixi gerçəkliyə çevrilmişdir.

Heydər Əliyev respublikamızda quruculuq tədbirlərinə neft strategiyasının yaradılması və həyata keçirilməsi ilə başladı. Yeni neft strategiyası respublikamızdakı indiki iqtisadi inkişafın təməlidir. Dünyada analoqu olmayan "Əsrin müqaviləsi"ndən sonra 19 ölkənin 41 şirkətini əhatə edən 26 neft müqaviləsi ərsəyə gəldi. Heydər Əliyev Azərbaycan xalqının malik olduğu potensialı, qabiliyyəti, ali şüuru, milli təfəkkürü ən yüksək səviyyədə təcəssüm etdirmişdir. Xalqımız əsrlər boyu qazandığı nailiyyətləri, ali keyfiyyətləri Heydər Əliyev epoxasında təkmilləşdirmiş və millət kimi mövcudluğunu, dövlət qurmaq haqqını, özünü idarə etmək bacarığını dünyaya nümayiş etdirmişdir. Heydər Əliyev Azərbaycanın adını bir dövlət kimi dünya tarixinə böyük hərflərlə və birdəfəlik yazdı. Heydər Əliyevin qeyri-adi istedadı, dərin zəkası, fenomenal qabiliyyəti, unikal dövlətçilik məharəti dünya nəhəngləri arasında onun yerini müəyyənləşdirirdi. Heydər Əliyev tarixi yaradan şəxsiyyət idi. O, zamanla ayaqlaşan, bəzən də onu qabaqlayan siyasətçilər cərgəsində idi.

Ulu Yaradan ümummilli lider Heydər Əliyevə çox şey vermişdi: fenomen yaddaş, dərin təhlil qabiliyyəti, vətəninə bağlılıq, sadəlik, dözüm, səlis nitq, hətta yaraşıqlı qamət və tarix yaratmaq bacarığı. Bu gün hər bir azərbaycanlı fəxr edir ki, məhz o, Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanın vətəndaşıdır, onun bütün varlığı ilə sevdiyi bir xalqın övladıdır.

Müstəqil Azərbaycanın Prokurorluğu mövcudluğuna, inkişafına, formalaşıb təşəkkül tapmasına, dövlət hakimiyyəti orqanlarında mövqeyinə görə Prezident Heydər Əliyevə minnətdar olmalıdır. Cinayətkarlığa qarşı mübarizə, hüquq qaydalarının möhkəmlənməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində prokurorluq orqanlarının əldə etdiyi bütün uğurlar Heydər Əliyev zəkasının məhsuludur. Ulu öndər xalqımızın əldə etdiyi tarixi nailiyyətlərə üstünlük verərək, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il qərarı ilə Bakı Dairə Məhkəməsi tərkibində prokurorluq orqanının fəaliyyətə başlanmasını əsas götürərək hər il oktyabrın 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd olunması barədə 17 iyul 1998-ci ildə sərəncam imzalamışdır. Həmin gün hər bir prokurorluq işçisi fərəh duyur ki, onlar Heydər Əliyev kimi memarı olan gözəl bir ölkədə çalışır. Bütün bacarığı və işgüzarlığını xalqının daha layiqli təmsil olunmasına, qanunların qorunmasına xidmət edir.

Müstəqilliyimizin əbədiliyini və dönməzliyini təmin etmək üçün ulu öndər yeni, dünyəvi qanunlar yaradılması, dövlətimizin daxili və xarici siyasətinin inkişaf istiqamətlərinin nizamlanması, dünyəvi normalara cavab verən qanuni islahatların aparılması üçün baza yaratmışdır. Onun rəhbərliyi ilə "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və sair qanunlar qəbul edilmişdir. Ölkəmizdə demokratiyanın yaradıcısı olan Heydər Əliyevin apardığı hüquqi islahatlar nəticəsində Azərbaycanda ədalətli prezident, parlament, bələdiyyə seçkiləri keçirilmişdir. Ölkədə demokratik seçki qanunları qəbul olunmuş, ölüm hökmü ləğv olunmuş, vətəndaşların Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ təmin olunmuşdur.

Prokurorluq orqanlarının dövlət hakimiyyətinin bir qolu olan məhkəmə hakimiyyəti sisteminə daxil edilməsi, əsas qanunda əlavə və dəyişikliklər aparılaraq Baş Prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilməsi Heydər Əliyev zəkasının nümunəsidir. Azərbaycan Prokurorluğu dövlətə və xalqa sədaqətlə xidmət edir. Bütün düşüncəsini və elmini xalqının güzəranının yaxşılaşmasına həsr edən Heydər Əliyevin prokurorluq orqanlarına inanması, güvənməsi sahə işçilərini daha məsuliyyətlə işləməyə sövq etmişdir. Ölkəni və xalqı məhvə aparan qüvvələrin üzə çıxarılaraq cinayət məsuliyyətinə alınmasında, mütəşəkkil cinayətkar dəstələrin vaxtında ləğv edilməsində və bu sistemin xüsusi xidmətləri olmuşdur.

Ulu öndər Heydər Əliyev prokurorluq əməkdaşlarına yüksək münasibət bildirərək qeyd etmişdir: "Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbii ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır".

Hər yerdə kadrların aparıcı rolunu qeyd edən ulu öndər prokurorluq sistemində də kadrların işə götürülməsində demokratik üsulun həyata keçirilməsi üçün "Prokurorluqda işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi haqqında" 19 iyul 2001-ci ildə fərman imzaladı. Yeni Əsasnamənin tələblərinə uyğun olaraq 2002-ci ildən başlayaraq prokurorluq orqanlarında kadr korpusunun komplektləşdirilməsinin ən demokratik və mütərəqqi vasitəsi kimi qulluğa qəbulun yeni qaydaları tətbiqi olundu. Ulu öndərin diqqət və qayğısı ilə prokurorluq orqanlarında sağlam iqlim yaradılmış, prokurorluq əməkdaşları mənəvi cəhətdən daha da sağlamlaşdırılmışdır. "Azərbaycan Respublikası Prokurorluq orqanlarında işləyən işçilərin maddi və sosial təminatı haqqında" 8 oktyabr 2002-ci il tarixli sərəncamı ulu öndərin prokurorluq işçilərinə atalıq qayğısının bariz təzahürü olmuşdur.

Azərbaycanda hüquqi dövlətin banisi, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi strateji xəttin onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən müasir dövrün yeni keyfiyyət tələblərinə uyğun səviyyədə uğurla həyata keçirilməsi nəticəsində ölkəmiz misli görünməyən sürətli inkişaf dinamikası əldə edərək regionun lider dövlətinə çevrilmişdir. Bu yüksək inkişafa və böyük uğurlara ulu öndərin hazırladığı, sosial-iqtisadi və ictimai-siyasi həyatın bütün sahələrini əhatə edən demokratik və köklü islahatlar zəmin yaratmışdır.

Zaman keçdikcə, ümummilli lider Heydər Əliyevin gördüyü işlərin möhtəşəmliyi, həyata keçirdiyi qətiyyətli siyasi tədbirlərinin əhəmiyyəti daha aydın görünür. Xalqımız Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi, onun gələcəyə istiqamətləndirilmiş tövsiyələrinin həyata keçirilməsi üçün bütün zəruri işləri görür, ümummilli liderinə dərin hörmətini nümayiş etdirir və Heydər Əliyev ideyalarına sonsuz sədaqət göstərir.

**Rəfael Həsənov,**
**Qazax rayon prokurorunun müavini,**
**I dərəcəli hüquqşünas**

# Çanaqqala zəfərinin 100 illiyi qeyd olunmuşdur

**Türkiyənin Çanaqqala savaşında zəfər çalmasının 100 illiyi münasibətilə Qazax Sement Zavodunda tədbir keçirilmişdir. Azərbaycan və Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş akt zalında keçirilən tədbirdə zavodda çalışan işçilərlə, azərbaycanlılarla yanaşı türklər də iştirak etmişdir.**



Tədbir Çanaqqala savaşına həsr olunmuş filmin nümayişi ilə başlamışdır.

Sonra zavodun inzibati işlər üzrə depertamentinin direktoru Əlif Məmmədov tədbiri giriş sözü ilə açaraq Çanaqqala zəfərinin Türkiyə dövlətinin tarixindəki əhəmiyyətindən, Azərbaycan və türk xalqlarının dostluğundan danışmışdır.

Zavodun direktoru Yusif Ziya Bəkiroğlu, "Göyəzən" qəzetinin redaktoru Elçin İsmayıl və digər çıxış edənlər həmin qələbənin əldə olunmasına kömək məqsədilə minlərlə azərbaycanlının türk qardaşlarının köməyinə getdiklərini, döyüşlərdə qəhrəmanlıqla vuruşaraq şəhid olduqlarını, hazırda həmin torpaqlarda uyuduqlarını və Çanaqqala qələbəsinin ortaq tariximizin şanlı səhifəsi olduğunu söyləmişlər. Qeyd olunmuşdur ki, "Bir millət, iki dövlət" olan Türkiyə və Azərbaycan bu gün dünya birliyində birgə mövqe nümayiş etdirir, xalqlarımız daha da sıx birləşir. Tədbirdə uydurma "1915-ci il erməni soyqırımı"ndan da danışılmışdır. "Erməni soyqırımı"nın 100 ilin yalanları olduğu bildirilmişdir. Erməni yalanlarının yayılmasının qarşısının alınması və ifşa olunması üçün həm Azərbaycan, həm də Türkiyədə mühüm işlərin görüldüyü vurğulanmış, bu məsələdə ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətləri yada salınmışdır. Avropa ölkələri və kimlərsə 100 il əvvələ qayıtmaqdansa, Qarabağda, Xocalıda törədilən qanlı faciələrə nəzər salmalıdır. Kimlərsə uydurma "Soyqırımı" ilə bağlı erməni yalanlarını qəbul etməklə tarixi saxtalaşdırırlar. Çıxış edənlər Qarabağ savaşında Azərbaycan xalqının da tezliklə qələbə əldə edəcəyinə əmin olduqlarını bildirmişlər.

**"GÖYƏZƏN"**

# ZƏKASI İLƏ DÜNYANI İŞIQLANDIRAN ŞƏXSİYYƏT

**Zaman dayanmır, ancaq bir zaman danışılan qiymətli sözlər dəyərli insanlar arasında daim yaşayır. İnsanlar zaman kimi də yaşamır, ancaq onların sözü zamanla bərabər yaşayır. Zəkası ilə dünyanı işıqlandıran, siyasəti ilə dünyaya meydan oxuyan, gələcək üzərində zəmin yaradan, səmimiyyəti ilə uşaqları, qocaları sevindirən bir şəxsiyyət idi ulu öndər Heydər Əliyev.**

Azərbaycanın ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində kəskin dönüş yaradan Heydər Əliyevin xalqı qarşısında xidmətləri əvəzsiz və danılmazdır. Heydər Əliyev elə bir şəxsiyyət olmuşdur ki, onun irsinin öyrənilməsi və təbliği çox zəruridir. Yüksək milli-əxlaqi keyfiyyətlərə malik ümummilli liderin zəngin həyat yolu gənc nəslin, uşaq və yeniyetmələrin milli, mənəvi, əxlaqi dəyərlərimizə sevgi ruhunda formalaşmasında böyük rol oynamışdır. Həmişə gənclərə və uşaqlara qarşı öz diqqət və qayğısını göstərən Heydər Əliyev onları hər zaman sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyi, hər bir insanın mənəviyyatı kimi qiymətləndirmişdir.

Bu gün cəmiyyətin həssas və kövrək zümrəsi olan uşaqlar ölkəmizdə daim yüksək qayğı, diqqət və nəvazişlə əhatə olunurlar. Azərbaycan cəmiyyəti həmişə uşaqlara məhəbbətlə yanaşır, onların sağlam və gümrah, eyni zamanda, savadlı və vətənpərvər böyümələri üçün hər cür şərait yaratmağa çalışır.

Bəli, bu gün dövlətimiz hər bir azərbaycanlı uşağının yüksək sosial-mənəvi mühitdə böyüməsinə çalışır. Ölkəmizdə dövlətin hüquq sisteminin əsasını təşkil edən Konstitusiya və qanunlarla uşaq hüquqlarına etibarlı təminat mexanizmləri yaradılıb. Məqsəd uşaqların layiqli, firavan yaşayış səviyyəsinin, təlim-tərbiyəsinin, təhsilinin, sosial müdafiəsinin, sağlamlığının yüksək səviyyədə təşkil edilməsidir.

Azərbaycanda uşaq siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Müstəqil Azərbaycan dövlətinin qurucusu olan ulu öndər uşaqları sonsuz məhəbbətlə sevirdi və onlara böyük qayğı və diqqət göstərirdi. Azərbaycan körpələrinin sağlamlığı, onların yaxşı təhsil və təlim-tərbiyə alması, Vətən və xalq üçün gərəkli övlad kimi böyüməsi ümummilli liderin daim diqqətində olmuşdur. Ümummilli lider Heydər Əliyev demişdir: "Sağlam bədəndə sağlam ruh, sağlam ruhda möhkəm iradə, möhkəm iradədə isə yenilməz ordu, yenilməz orduda qələbəyə inam hissi olar". Dahi öndər əzmkar olduğu kimi, həm də qayğıkeş insan idi. O, müstəqilliyin ilk illərində böyük ictimai-siyasi problemlərlə üzləşmiş, ədalətsiz müharibəyə cəlb olunmuş, torpaqlarının 20 faizini itirmiş ölkəmizi düçar olduğu faciələrdən xilas edərkən uşaqların taleyini bir an belə unutmamış, böyük işlərdən vaxt taparaq həmişə onların görüşünə gəlmiş, problemlərinin həlli istiqamətində təsirli tədbirlər görmüşdür. Məhz bu sonsuz diqqət və qayğının nəticəsi idi ki, Azərbaycan körpələri millət atası Heydər Əliyev ilə hər bir görüşdən sonsuz coşqu, böyük ilham alırdılar. Bu səmimi və kövrək görüşlər hər bir uşağın yaddaşında əbədi iz qoymuşdur. O, həmişə şəhid, qaçqın, kimsəsiz uşaqlarını diqqət və nəzərində saxlamış, onlara müvafiq təqaüdlərin ayrılması, pulsuz təhsil almaları, xəstə uşaqların dövlət hesabına müalicə və müayinə olunmaları üçün sərəncamlar imzalamışdır. Təhsildə fərqlənən gənclərin xarici ölkələrdə oxumaları üçün bütün xərcləri öz üzərinə götürmüşdür. İdmanda yüksək nailiyyətlər qazanmış yeniyetmə və gəncləri hər cür şəraitlə təmin etmişdir. Bundan başqa respublikanın bütün bölgələrində uşaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün Uşaq Əyləncə Mərkəzlərinin, oyun meydançalarının, parkların, idman zallarının və s. tikilərək istifadəyə verilməsi üçün tapşırıqlar vermişdir.

Ulu öndər Heydər Əliyevin söylədiyi kimi "Bu günün yeniyetməsi gələcəyin əsgəridir. Mərd oğuldan igid əsgər olur. Əsgər Ana Vətəni qoruyur, onun keşiyində dayanır". Bəli, biz müəllimlərin üzərinə də bu sahədə böyük məsuliyyət düşür. Biz uşaqları, yeniyetmələri vətənpərvər, xalqına, millətinə bağlı vətəndaş kimi tərbiyə etməliyik. Ümummilli liderin siyasətini dəstəkləməli və uğurla davam etdirməliyik. Mən və mənim kimi yüzlərlə Qazax müəllimlər ordusu bəşəriyyət yaşadıqca əbədi olaraq onun zamanla yaşayan qiymətli sözlərini unutmayacağıq.

**Rüxsarə ƏHMƏDOVA,**
**Qazax şəhər 5 saylı tam orta məktəbin ibtidai sinif müəllimi**



# Rayonumuzda qanvermə aksiyası keçirilmişdir

**Rayonumuzda növbəti qanvermə aksiyası keçirilmişdir. Qazax Müalicə Diaqnostika Mərkəzində keçirilən xeyriyyə aksiyasına idarə, müəssisə və təşkilat kollektivləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, gənclər həvəslə qoşulmuşlar.**

Müxtəlif qan xəstəliklərindən əziyyət çəkənlərə köməklik məqsədilə keçirilən tədbirdə Respublika Səhiyyə Nazirliyinin Mingəçevir Qan Bankının əməkdaşları qan vermək istəyən vətəndaşları müayinə edib və onlara məsləhətlər verdikdən sonra qanverməyə hazırlamışlar.

Qazaxda mütəmadi olaraq keçirilən qanvermə aksiyası həmişə olduğu kimi bu dəfə də yüksək mütəşəkkillik şəraitində başlamış və uğurla başa çatmışdır. Aksiya çərçivəsində könüllü olaraq qan vermək üçün tibb müəssisələrinə 300 nəfərdən çox rayon sakini müraciət etmiş və onların 187 nəfərindən qan götürülmüşdür. Rayon üzrə 70 litr qan tədarük edilmişdir.

Sonda aksiyada iştirak edən rayon sakinləri bu cür tədbirlərin keçirilməsini bəyəndiklərini bildirmiş və hamını bu aksiyada fəal iştirak etməyə çağırmışlar.

# Əhalinin tibbi müayinəsi başa çatmışdır

***Qazaxda ölkə Prezidenti İlham Əliyevin tapşırığı ilə cari ilin fevralın 02-dən mayın 01-dək respublika əhalisinin ümumi profilaktik müayinələrə cəlb olunması aksiyası çərçivəsində rayondakı Müalicə Diaqnostika Mərkəzində, şəhər Poliklinikasında və xüsusi həkim briqadaları tərəfindən yaşayış məntəqələrində keçirilən əhalinin tibbi müayinəsi başa çatmışdır.***

Aksiya çərçivəsində 68455 nəfər rayon sakini tibbi müayinədən keçirilmişdir. Onlardan 4222 nəfərinə ambulator, 606 nəfərinə isə stasionar müalicə kursu təyin olunmuş, 197 nəfər Bakı şəhərinə müalicəyə göndərilmişdir.

Artıq 2 ildir ki, davam edən aksiyada pulsuz tibbi muayinədən keçən sakinlər onların sağlamlığının etibarlı şəkildə qorunması, xəstəliklərin erkən aşkar edilərək müalicəyə cəlb olunması məqsədilə keçirilən bu aksiyanı yüksək qiymətləndirmiş və Ölkə Prezidentinə dərin minnətdarlıqlarını bildirmişlər.

# KƏSSƏ HƏR KƏS TÖKÜLƏN QAN İZİNİ

**Bu gün həyatı və fəaliyyəti ilə milyonlarla insanın qibtə və maraq dünyasına çevrilən bir dahinin - Heydər Əliyevin 92-ci ildönümü bütün Heydər Əliyev sevərlər tərəfindən böyük təntənə ilə qeyd olunur. Heydər Əliyev də hamımız kimi sadə uşaqlıq həyatı keçirmiş, gəncliyin romantik və qaynar arzuları ilə yaşamışdır. Xarakterindəki bu qaynarlıq və çılğınlıq, gözlərindəki həyat işığı, rəngarənglik dünyaya göz açdığı yaz fəsli ilə həmahənglik təşkil edir. 1923-cü il mayın 10-da təbiətin əlvan rəngə büründüyü xoş bir gündə doğuldu.**

Zaman keçdikcə ulu Tanrının bəxş etdiyi fitri istedad gənc Heydəri yaşıdlarından çox fərqləndirdi. Dərin məntiqi, yaradıcı təxəyyülü ilə hamını qabaqladı. Bütün sahələrdə xüsusi bacarığa malik idi. Xüsusən də mənsub olduğu xalqın ədəbiyyatını çox sevirdi. Hələ gənc yaşlarında tarixi mövzuda yazılmış əsərlərə böyük maraq göstərirdi. Ədəbiyyat dərnəklərində fəal iştirak edərək səhnələşdirilmiş əsərlərin həmişə baş rollarında məharətlə oynayardı. Bu da onun gələcəkdə xüsusi qabiliyyətinin olmasından xəbər verirdi. Bu istedadını duyan ədəbiyyat müəllimi Lətif Hüseynzadə həmişə deyərmiş: "Heydər sən adi deyilsən, səndə çox qeyri-adiliklər var. Sən gələcəyin dahi şəxsiyyətlərindən olacaqsan. Naxçıvanın, Azərbaycanın adını ucaldacaqsan". Beləliklə, Heydər Əliyev həm orta məktəbi, həm də 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikomunu əla qiymətlərlə bitirir. Öz üzərində durmadan çalışmaq, oxumaq, qurub-yaratmaq arzusu onu Bakıya gətirir. Gənc Heydərin həm də gözəl rəssamlıq qabiliyyəti vardır. Bu həvəs onun Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə qəbul olmasına səbəb olur. Həmin il II Dünya Müharibəsi başlayır. İşğalçı faşist Almaniyası bütün dünyaya ağalıq etmək niyyətinə düşür. Bu baxımdan məkrli niyyət milyonlarla insanın acı taleyinə səbəb olur. O cümlədən bu gəncin də həyatında bir çox ciddi dəyişiklik yaradır. Müharibə ona təhsilini davam etdirməyə imkan vermir. Yenidən Naxçıvana qayıdır. Əmək fəaliyyətini orada davam etdirir. 1941-43-cü illərdə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında bölmə müdiri işləyir. O, 1949-cu ildə Dövlət Təhlükəsizlik Orqanlarına işə göndərilir. 1945-ci ildə Sovet İttifaqı Kommunist Partiyası sıralarına daxil olur. 1949-cu ildə Leninqrad Təhlükəsizlik Orqanının Ali Məktəbinin dinləyicisi olan Heydər Əliyev 1950-ci ilin yayınadək orada təhsil alır. Həmin məktəbi də əla qiymətlərlə bitirir. Ona verilən xidməti xasiyyətnamədən bəzi qeydləri nəzərinizə çatdırmağı özümə borc bilirəm. "Tərbiyəlidir, mənəvi cəhətdən dözümlüdür, məişətdə ciddidir, yoldaşları ilə münasibətdə ünsiyyətçildir, ədəbli və nəzakətlidir. Dinləyicilər arasında xüsusi nüfuza malikdir. Vəzifəyə irəli çəkilməyə layiqdir".

Heydər Əliyev 1957-ci ildə Bakı Dövlət Universitetinin qürurverici məzunu olmuşdur. O, sovet dönəmində məsul vəzifələrdə çalışarkən həmişə Azərbaycanın mənafeyini düşünmüş, uzaqgörənliyi sayəsində həmişə Azərbaycanın ali məktəblərində oxuyan tələbələrin təhsilini keçmiş SSRİ-nin müxtəlif ali məktəblərində davam etdirməsinə şərait yaratmışdır. Bu da gələcəkdə bütün sahələrdə yüksək savadlı kadr potensialının güclənməsinə xidmət edirdi. Gənc kadrların sayəsində Azərbaycan sənayesi, iqtisadiyyatı, təhsili, səhiyyəsi inkişaf edirdi. Dahi şəxsiyyətləri zaman öz ehtiyacı üçün yetişdirir. Onlar zamana ehtiyac duymur. Heydər Əliyev də belə dahi şəxsiyyətlərdəndir. Heydər Əliyev şəxsiyyəti, onun həyat yolu dünya tarixində də özünəməxsus yer tutur. Onun ən böyük özünəməxsusluğunun bir sirri də onda idi ki, o, tarixin qızıl səhifəsinə böyük hərflərlə yazılacaq Azərbaycanlı idi.

Ulu öndər Heydər Əliyevin fəaliyyətinin ən önəmli xətlərindən biri də təhsil sahəsi idi. Ulu öndər deyirdi: "Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət haradan olursa olsun, nədən olursa olsun kəsib təhsilə xərcləməlidir. Gənc nəslin təhsilinə müəllimlər də kömək etməlidir. Bu mənim prinsipial mövqeyimdir". Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndərin pillə-pillə ucaltdığı ölkəni, onun miras qoyduğu dövlətçilik prinsipini əsaslı şəkildə idarə edir. İlham Əliyev nəinki paytaxtda, eləcə də bölgələrimizdə tikilən müasir tipli məktəb binalarının istifadəyə verilməsi ilə Heydər Əliyevin prinsipial mövqeyini dəstəklədiyini bir daha sübut edir. Mənim işlədiyim M.Həsənov adına I Şıxlı kənd tam orta məktəbinin müasir standartlara cavab verən, hər cür şəraiti olan binası var. Onu qeyd edim ki, məktəb binası İlham Əliyevin 04 dekabr 2009-cu il tarixli sərəncamı ilə tikilib istifadəyə verilmişdir. Cənab Prezident şəxsən 09 fevral 2011-ci ildə məktəbimizin açılışında iştirak edib, ilk xeyir-duasını vermişdir.

Mən təhsil işçisi olduğum üçün ölkəmizdə aparılan uğurlu təhsil islahatlarını dəstəkləyirəm. Və sonda fikrimi ulu öndərin müdrik kəlamı ilə bitirmək istəyirəm: "Azərbaycan dünayaya bir Günəş kimi yenidən doğacaq".

**Kətanə ALIYEVA,**
**M.Həsənov adına I Şıxlı kənd tam orta məktəbin ibtidai sinif müəllimi**

# General Əlağa Şıxlinskinin 150 illik yubileyinə həsr olunmuş turnir keçirilmişdir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin general, hərbi xadim Əlağa Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında 20 noyabr 2014-cü il tarixli Sərəncamına uyğun olaraq tədbirlər davam edir.**

Bu günlərdə Qazax rayon İcra Hakimiyyətinin və Qızıl Aypara Cəmiyyəti Qazax rayon bölməsinin birgə təşkilatçılığı ilə Əlağa Şıxlinskinin 150 illik yubileyinə həsr olunmuş futbol üzrə xatirə turniri keçirilmişdir.

Qızıl Aypara Cəmiyyəti Qazax rayon bölməsinin sədri Qurban Qurbanlı tədbiri giriş sözü ilə açaraq generalın keçdiyi həyat və döyüş yolu haqqında tədbir iştirakçılarına geniş məlumat vermişdir.



Rayon İcra Hakimyyətinin məsul işçisi Sərdar Orucov, İcra Hakimiyyəti Başçısının Birinci Şıxlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Mübariz Abdullayev, Birinci Şıxlı kənd tam orta məktəbin direktoru Məzahir Qocayev və başqaları mərasimdə çıxış etmişlər.

Sonra futbol üzrə şəhər stadionunda keçirilən xatirə turnirinə start verilmişdir. Turnirin finalında rayonun Xanlıqlar və Birinci Şıxlı kənd futbol komandaları qarşılaşmışlar. Gərgin keçən mübarizə şəraitində Birinci Şıxlı kəndinin futbol komandası 3:0 hesabı ilə turnirin qalibi olmuşdur. Birinci Şıxlı kəndinin futbolçuları öz ənənələrinə sadiq qalaraq bu dəfə də kubokun sahibi olmuşlar.

Qalib komandaya Qızıl Aypara Cəmiyyətinin prizi və mükafatları təqdim olunmuşdur.

# Fəxri fərman verilmişdir

**Ulu öndər Heydər Əliyev, onun layiqli davamçısı Prezident İlham Əliyevin tariximizə, abidələrimizə, mədəni irsə göstərdikləri diqqət və qayğı ən yüksək səviyyədədir.**

Azərbaycanın I xanımı Mehriban Əliyevanın bu sahədə gördüyü işlər dəyərli və diqqətə layiqdir. Bu sahədə çalışan insanlara göstərilən qayğı və münasibət, verilən mükafatlar da görülən bu işlərə nümunədir.

18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günündə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə artıq 3-cü ildir ki, keçirilən "Milli irs" mükafatının təqdimat mərasimi bu il Azərbaycan Xalça Muzeyində təşkil edilmişdir. Tədbirə giriş sözü ilə başlayan Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev bu gün münasibətilə hər kəsi təbrik etmiş, bu günün mahiyyəti haqqında ətraflı məlumat vermişdir.

"Milli irs" mükafatından danışan Ə.Qarayev bildirmişdir ki, ənənəyə görə bu mükafat hər il ölkəmizin zəngin mədəni irsinin təbliğinə, tarixi və mədəni abidələrin qorunub saxlanılmasına böyük töhfə verən insanlara təqdim olunur. "Milli irs" mükafatı 3 nominasiyada yüksək xidmət göstərmiş insanlara təqdim olunub. Bundan əlavə Mədəniyyət və Turizm Nazirliyinin fəxri diplomları və pul mükafatı təqdim olunub.



Qazax rayon "Avey" Dövlət Tarix-Mədəniyyət qoruğunun direktoru Səadət Əliyeva da "Mədəni irsin qorunması sahəsində səmərəli fəaliyyətinə görə" Fəxri Fərmanla mükafatlandırılıb və pul mükafatı alıb.

Biz də kollektivimiz adından S.Əliyevanı mükafat alması münasibətilə təbrik edir və gələcək işlərində daha böyük nailiyyətlər qazanmasını arzulayırıq.

# "Hərb tariximizin sönməz GÜNƏŞİ"

**Mərkəzi Kitabxananın oxu zalında general Əlağa Şıxlinskinin anadan olmasının 150 illiyi münasibətilə tədbir keçirilmişdir. Tədbirdə təhsil, mədəniyyət işçiləri və fəal oxucuların bir qrupu iştirak etmişdir.**

Mərkəzi Kitabxana Sisteminin direktoru Solmaz Babanlı tədbiri giriş sözü ilə açaraq qeyd etmişdir ki, "General Əlağa Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezindenti İlham Əliyevin 20 noyabr 2014-cü il tarixli Sərəncamının icrası ilə bağlı MKS-nin bütün kitabxanalarında tədbirlər keçirilir. Vətənini hədsiz məhəbbətlə sevən general Əlağa Şıxlinski Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna fəaliyyət göstərmiş, sonrakı dövrlərdə də ölkənin silahlı qüvvələrinin formalaşmasına misilsiz töhfələr vermişdir.

MKS-nin metodika və biblioqrafiya şöbəsinin müdiri Fatma Hüseynova məruzə ilə çıxış edərək Əlağa Şıxlinskinin həyat və fəaliyyəti haqqında geniş məlumat vermişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur. Mədəniyyət və Turizm şöbəsinin məsləhətçisi Nailə Əliyeva, xidmət şöbəsinin müdiri Həcər Hadıyeva və başqaları çıxış edərək Ə.Şıxlinskinin dünya hərb nəzəriyyəsində-artilleriya elmindəki kəşfləri, XX əsr müharibələrində, cəbhələrdə qazandığı təcrübəyə əsaslanaraq 1918-ci ildə Milli Ordumuzun yaranmasında və formalaşmasındakı xidmətlərindən söhbət açmış, onun hərb elminə gətirdiyi yeniliklər, kəşflər haqqında ətraflı danışmışlar.

Tədbirin sonunda "Hərb tariximizin sönməz GÜNƏŞİ" adlı sərgiyə baxış keçirilmişdir.

**Münəvvər SÜLEYMANLI,**
**MKS-nin direktor müavini**

# TƏBRİK EDİRİK



**Azərbaycan Qızıl Aypara Cəmiyyəti respublikamızda öz məqsəd və məramına uyğun olaraq tədbirlər aparır, müxtəlif səpkili layihələr həyata keçirir. Cəmiyyətin Qazax rayon bölməsinin fəaliyyəti də günün tələblərinə tam uyğundur. Belə ki, sərhəd bölgəsində yerləşən rayonumuzda cəmiyyət tərəfindən təhlükəsiz uşaq idman oyun meydançaları qurulmuş, artezian quyuları qazılmış, şagirdlərə məktəb ləvazimatları verilmişdir.**

Qurban İsfəndiyar oğlu Qurbanlı 2000-ci ildən Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qazax rayon bölməsinin sədri vəzifəsində çalışır. Q.Qurbanlı işlədiyi bu müddət ərzində cəmiyyətin fundamental prinsiplərinə uyğun olaraq verilən tapşırıqları həmişə vaxtlı-vaxtında yerinə yetirir. Eyni zamanda o, fəaliyyət göstərdiyi ərazidəki bütün təbəqəli insanlara kömək edir, diqqət və qayğı göstərir. Bütün bu yüksək keyfiyyətlərinə görə Q.Qurbanlı dəfələrlə cəmiyyətin Fəxri Fərmanlarına layiq görülmüşdür.

Bu günlərdə isə Qurban Qurbanlı Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaranmasının 95 illik yubileyi münasibətilə cəmiyyətin ali "Qızıl Aypara" medalı ilə təltif olunmuşdur. Gülüstan sarayında keçirilən yubiley tədbirində cəmiyyətin Prezidenti, Millət Vəkili Novruz Aslanov medalı Q.Qurbanlıya təqdim etmişdir.

"Qızıl Aypara" medalı alması münasibətilə həmyerlimizi təbrik edir, ona gələcək işlərində müvəffəqiyyətlər arzulayırıq.

**"GÖYƏZƏN"**

# TƏDBİR KEÇİRİLMİŞDİR

**Mərkəzi Kitabxana Sisteminin oxu zalında "1941-1945-ci illər Böyük Vətən Müharibəsində Qələbənin 70 illiyi" ilə əlaqədar tədbir keçirilmişdir. Tədbirdə mədəniyyət və kitabxana işçiləri, fəal oxucular iştirak etmişdir.**

Mərkəzi Kitabxana Sisteminin direktoru Solmaz Babanlı tədbiri giriş sözü ilə açaraq tədbirin mahiyyəti barədə geniş məlumat vermişdir. Qeyd etmişdir ki, bu tədbirin keçirilməsində məqsəd oxuculara Azərbaycanın mərd oğullarının keçdiyi rəşadətli döyüş yolunu təbliğ etməkdir. Çünki onların keçdiyi bu şərəfli yol indiki gənclər üçün bir nümunədir, bir məktəbdir. Qəhrəmanlar unudulmur, onların xatirəsi həmişə xoş xatirələrlə anılır və yada düşür.

Sonra təbdirlər planına uyğun olaraq hazırlanmış Böyük Vətən Müharibəsinə həsr olunmuş film və video çarx nümayiş olunmuşdur.

**Fatma HÜSEYNOVA,**
**MKS-nin metodika və biblioqrafiya şöbəsinin müdiri**

# "Tarixi abidələrdə yaşayan tariximiz"

**Qazax rayon İcra Hakimiyyətinin və Gənclərin İntellektual İnkişafına Dəstək İctimai Birliyinin birgə dəstəyi ilə "Tarixi abidələrdə yaşayan tariximiz" layihə çərçivəsində tarixi abidələri özündə əks etdirən kitabçaların təqdimatı keçirilmişdir.**

Qazax Dövlət Sosial-İqtisad Kollecində, Qazax şəhər 1 saylı tam orta məktəbdə, rayon Mədəniyyət Mərkəzində və Azərbaycan Müəllimlər İnstitutunun Qazax filialında keçirilən təqdimat mərasimlərində rayon İcra Hakimiyyətinin məsul işçiləri, təhsil və mədəniyyət işçiləri, müəllim, tələbə və şagirdlər, QHT, KİV və ictimaiyyət nümayəndələri iştirak etmişdir.



Qazax rayon İcra Hakimiyyətinin məsul işçisi Azad Hümbətov, rayon Gənclər və İdman İdarəsinin məsləhətçisi İsmayıl Süleymanov, Mədəniyyət və Turizm şöbəsinin məsləhətçiləri Nailə Əliyeva, Pəri Məmmədova və başqaları mərasimdə çıxış edərək həyata keçirilən layihə, onun əhəmiyyəti haqqında məlumat vermişlər. Çıxışlarda ölkəmizdə, eləcə də rayonumuzda dövlət səviyyəsində gənclərə göstərilən qayğıdan, onların perspektivlərinin dövlət tərəfindən dəstəklənməsindən, hökumət və qeyri-hökumət təşkilatları arasındakı münasibətlərdən ətraflı danışmışlar. Rayonda tarixi abidələri özündə əks etdirən kitabçaların nəşri yüksək qiymətləndirilmiş və bu cür tədbirlərin daha geniş və tez-tez keçirilməsinin vacibliyi vurğulanmışdır.

Sonra AMİ Qazax filialının direktoru Afaq Qasımova və QHT nümayəndəsi Məhərrəm Göyüşoğlu çıxış edərək gənclərimizin tarixi abidələrimiz haqda bilgilərinin genişləndirilməsi istiqamətində bu cür layihələrin həyata keçirilməsinin önəmli olduğunu söyləmişlər.

Beləliklə, "Tarixi abidələrimizdə yaşayan tariximiz" layihəsinə yekun vurulmuş, tədbir iştirakçılarına layihənin emblemi təsvir olunmuş köynəklər və rayonda yerləşən tarixi abidələri özündə əks etdirən kitabçalar paylanılmışdır.

# Şair Vəli Xramçaylının 60 illik yubileyi qeyd edilmişdir

**Rayon İcra Hakimiyyətinin və Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının birgə təşkilatçılığı ilə dövrü mətbuatda "Dərviş" təxəllüsü ilə tanınmış şair, "Ocaq" qəzetinin təsisçisi və baş redaktoru Vəli Xramçaylının 60 illik yubileyi böyük təntənə ilə qeyd edilmişdir. Ədəbiyyat Muzeyinin akt zalında keçirilən yubiley tədbirində şairlər, yazarlar, poeziya sevərlər, respublikanın əksər bölgəsindən olan qonaqlar, məktəblilər, şairin yaxınları, doğmaları, KİV nümayəndələri iştirak etmişdir.**

Ədəbiyyat Muzeyində ədəbi məsləhətçi, şair Mustafa Rasimoğlu tədbiri giriş sözü ilə açaraq Vəli Xramçaylını 60 illik yubileyi münasibətilə təbrik etmiş, onun həyat və yaradıcılığından söz açmışdır. Qeyd etmişdir ki, V.Xramçaylının şeirləri Azərbaycan ədəbiyyatında öz dəst-xətti ilə seçilir.

Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək yubliyarı anadan olmasının 60 illiyi münasibətilə təbrik etmiş, Azərbaycan ədəbiyyatında, mətbuatında "Dərviş" təxəllüsü ilə tanınan Vəli Xramçaylı yaradıcılığının dərin məna, məzmun kəsb etməsindən, şeirlərinin incəliyindən, həmin şeirlərdə lirikanın üstünlük təşkil etməsindən söz açmışdır.

Sonra çıxışlar olmuşdur. Bakıdan, Gəncədən, Tovuzdan, Ağstafadan gələn qonaqlar öz ürək sözlərini bildirmişlər.



Qazax rayon İcra Hakimiyyətinin əməkdaşı Fariz Vəliyev, şairlərdən Mübariz Məsimoğlu, Ələddin İncəli, Əbülfət İslam, Məzahir Alıyev, Abbas Cümənoğlu, Məzahir Yaqub, şairə Səbinə Yusif, şairin yaxın dostu, əməkdar idman xadimi Ramiz Tağıyev, Ağstafada fəaliyyət göstərən Hüseyn Arif adına ədəbi məclisin rəhbəri Saqif Qaratorpaq, Gəncədə çıxan "Rüzgar" qəzetinin baş redaktoru Füzuli Rüzgar, jurnalist Sərhəd Məmmədov, "Ocaq" qəzetinin əməkdaşı Ziba xanım, şairə Tamella Poladlı, şairin qardaşı Sayad müəllim və başqaları çıxış edərək yubliyarı təbirk etmiş, gələcək işlərində uğurlar arzulamışlar.

Aşıqlardan Camoy Çaylının, Yaqub Şıxlının, gənc aşıq Elvinin ifasında səslənən saz havaları tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanmışdır.

II Şıxlı Sarıvəlli kənd tam orta məktəbin şagirdləri şairin şeirlərini söyləmiş, bədii kompozisiya nümayiş etdirmişlər.

Sonda yubliyar çıxış edərək tədbirdə iştirak edənləri salamlamış və iştirak etdiklərinə görə öz dərin minnətdarlığını bildirmişdir. Vaxtilə dövrü mətbuatda çap olunan şeirlərini səsləndirmişdir.

Daha sonra xatirə şəkli çəkilmişdir.

**Nüşabə HÜSEYNOVA**

# Rəsm Qalereyasında tədbir keçirilmişdir

**Qazax Dövlət Rəsm Qalereyasında Bakıda keçiriləcək Bakı-2015 I Avropa Oyunları ilə bağlı maarifləndirici və təbliğat-təşviqat xarakterli tədbir keçirilmişdir. Tədbirdə rayonun mədəniyyət işçiləri, idmançılar, gənclər və ictimaiyyət nümayəndələri iştirak etmişdir. Rayon Mədəniyyət və Turizm şöbəsinin məsləhətçisi Nailə Əliyeva tədbiri giriş sözü ilə açmış, tədbirin məqsədi barədə iştirakçılara məlumat vermişdir.**

Qazax Dövlət Rəsm Qalereyasının direktoru Münəvvər Xəlilova çıxış edərək bildirmişdir ki, 2012-ci ilin dekabr ayında Avropa Olimpiya Komitəsinin Məclisi tərəfindən I Avropa Olimpiya oyunlarının Bakıda keçirilməsi haqqında qərar qəbul edilmişdir. I Avropa Oyunlarının Bakıda keçirilməsi tarixi hadisədir. Avropa Oyunlarının ilk dəfə Bakıda keçirilməsi ölkəmizin böyük uğurudur. Bu gün Azərbaycan Avropada və bütün dünyada dinamik inkişaf edən ölkə, etibarlı dost və tərəfdaş kimi tanınır. Azərbaycan bütün dünyada ən möhtəbər, dünya əhəmiyyətli tədbirlərin, idman yarışlarının keçirilməsinə ev sahibliyi etməyə tam hazırdır. Bu xalqımızı sevindirir və biz bundan qürür hissi keçiririk.

Sonra Mərkəzi Kitabxana Sisteminin direktoru Solmaz Babanlı, rayon Tarix Diyarşünaslıq Muzeyinin direktoru Gülnaz Alışanova, rayon Gənclər və İdman İdarəsinin məsləhətçisi İsmayıl Süleymanov və başqaları çıxış edərək I Avropa Oyunlarının Azərbaycanda keçirilməsinin əhəmiyyəti barədə danışmış, dövlətimizin siyasi uğuru olduğunu qeyd edərək idmançılara uğurlar arzulamışlar.

Sonda qalereyanın nəzdində fəaliyyət göstərən rəsm dərnəyi üzvlərinin Bakıda keçirilən I Avropa Oyunlarına həsr olunmuş əl işlərindən ibarət sərgiyə baxış keçirilmiş və qaliblərə Diplomlar verilmişdir.

# HƏR ZƏHMƏTİN ÖZ BƏHRƏSİ VAR



**Bizim üçün kitab nədir? Bu sualın cavabı çox asandır. Biz Ana, Vətən kəlməsinin mənasını kitabdan öyrənmişik. Savadlı olmaq üçün kitab oxuyuruq. Çünki kitab elə vasitədir ki, hər hansı bir məlumatı onun vasitəsilə öyrənirik. İlk növbədə yazmaq üçün hərfləri bilməliyik. Hərflərin öyrənilməsində də əlifba kitabı köməyimizə çatır. Daha sonra kitab vasitəsilə sözlər, cümlələr qurmağı öyrənirik.**

Kitabın əhəmiyyətli cəhətləri bununla da bitmir. Məhz nitqin zənginləşməsində kitab böyük rol oynayır. Səlist, gözəl nitq qabiliyyətimizin olması üçün çoxlu əsərlər oxuyuruq. Bundan başqa hər bir sahəyə aid məlumatları yazılmış olan kitablardan alırıq. Şairlərimizin şeir kitabları bizə mənəvi qida verir. İnsanda duyğu hissləri yaradır. Biz riyazi düsturları, kimyəvi işarələri, lazım olan lüğət sözlərini və başqa bir çox elmi ixtiraları kitab vasitəsilə öyrənirik. Bütün məlumatlar məhz kitab şəklində dərc olunaraq məktəblərdə dərslik kimi istifadə olunur. Biz də həmin dərslik kitablarını oxuyaraq müəyyən bir səviyyəyə çatırıq.

Düşünə bilərsiniz ki, artıq XXI əsrdə yaşayırıq. Axı, texnologiyanın inkişaf etdiyi bir dövrdə kitab bizim nəyimizə lazımdır? Bəli, texnologiya əsrində yaşasaq da kitab, kitab oxumaq mütləq lazımdır. Çünki texnologiya dediyimiz cihazlar da kitabdan öyrəndiyimiz biliklər sayəsində yaranır. Hər bir məlumatı texnologiyanın köməyi ilə, yəni kompyuter vasitəsilə internetdən öyrənə bilərik. Bu sahədə elektron kitabxanalarımız əvəzedilməzdir. Burada istənilən hər hansı bir sahəyə aid məlumatı öyrənmək olar. Bu sahədə Mərkəzi Kitabxana Sistemlərinin üzərinə böyük məsuliyyət düşür.

Respublikanın hər yerində olduğu kimi rayonumuzda da Mərkəzləşdirilmiş Kitabxana Sistemi fəaliyyət göstərir. Rayon ərazisində MKS-nin tabeliyində olan 1 uşaq şöbəsi, rayon üzrə 4, kəndlərdə isə 38 kitabxana oxucuların ixtiyarındadır. Bu kitabxanalarda 128 nəfər kitabxanaçı çalışır ki, onlar hər gün oxuculara xidmət göstərir, bu geniş kitab dənizində onlara bələdçilik edirlər. Hal-hazırda kitabxanalarımızda rayon üzrə 513.896 kitab fondu, 31644 fəal oxucu vardır.

Bu gün Mərkəzi Kitabxana Sisteminə Solmaz Babanlı rəhbərlik edir. Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsini bitirmiş S.Babanlı öz sahəsi üzrə müxtəlif vəzifələrdə çalışıb. 1976-cı ildən Mədəniyyət və Turizm şöbəsində mədəni-çadır müdiri vəzifəsinə, 1980-ci il mart ayının 4-dən isə Qazax rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminə direktor müavini vəzifəsinə təyin edilib. 1990-cı il oktyabr ayının 17-dən hal-hazıra kimi MKS-nin direktoru vəzifəsində çalışır. O, fəaliyyəti dövründə çalışdığı kollektivin, müdriyyətin hörmət və rəğbətini qazanmışdır.

Solmaz xanım rayonda aparılan siyasi-ictimai işlərdə də yaxından iştirak edir. Uzun müddət Qazax şəhər bələdiyyəsinin üzvü olmuşdur. Hal-hazırda o, İcra Hakimiyyəti yanında Şəhidlərə Adqoyma komissiyasının, eyni zamanda Yeni Azərbaycan Partiyasının üzvüdür. Müxtəlif illərdə o, öz səmərəli fəaliyyətinə görə dəfələrlə Mədəniyyət və Turizm Nazirliyi, eləcə də rayon rəhbərliyi tərəfindən bir çox mükafatlara, Diplom və Fəxri Fərmanlara layiq görülmüşdür. 2008-ci ildə "Kitabxana-informasiya sahəsində ictimai fəallığı, təşəbbüskarlığı və səmərəli fəaliyyətinə görə" Fəxri Fərman almışdır.

Solmaz Babanlı bu yaxınlarda daha bir mükafata layiq görülmüşdür. Belə ki, o, 05 mart 2015-ci il tarixdə Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev tərəfindən "Kitabxana-informasiya sahəsində səmərəli fəaliyyətinə görə" Fəxri Fərmanla təltif edilmişdir.

Biz də öz növbəmizdə Solmaz xanımı təbrik edir, ona gələcək fəaliyyətində uğurlar arzulayırıq.

**"GÖYƏZƏN"**

## ULU ÖNDƏR

Ululardan sən ulusan,
Dağlar qədər qürurlusan.
Öz ağlınla, öz zəkanla,
Sən dünyanı fəth eylədin.
Ömrünü Vətən üçün qurban eylədin,

Yaşamadın şöhrət üçün,
Yaşamadın nemət üçün.
Yaşamadın özün üçün,
Sən yaşadın bizim üçün.
Bu gün üçün, sabah üçün,

Namərd sözünə tuşlandın,
Xain fəndi ilə üzləşdin.
Sən çaşmadan, büdrəmədən,
Öz ağlınla silahlanıb.
Haqq yolunda mərd dayandın,

Sən güclüsən tufan qədər,
Təmkinlisən sakit-sakit dalğalanan dəniz kimi.
Sən dərinsən dərya qədər,
Sən kövrəksən mizrab altda inildəyən bir sim kimi.
Sən natiqsən özün kimi,

Sinə gərdin Vətən üstə uzadılmış,
O caynaqlı pəncələrə.
Bir ordunun zor gücünə, qan gücünə,
Qoruduğu sərhədləri bir imzanla sən qorudun.
Xalqın üçün arxa oldun, dayaq oldun,

Nəhəngləri diz çökdürdün,
Sərvətiylə Odlar Yurdu qarşısında.
Memarlığı özün etdin Vətənin hər qarışında,
Sən bağ saldın, bina tikib, təməl atdın.
Azərbaycan adında bir gülüstan yaratdın.

**Xalidə RZAQIZI**

Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor) 5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB33010019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ: 3000

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "SQ" mətbəəsində çap edilib.
Fotolar: Salmanındır.